"Gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar"

Qərbi Azərbaycan torpaqları xalqımızın yaddaşında və mənəvi dünyasında silinməz izlər buraxmış müqəddəs bir yurd yeridir. Bu torpaqlar yalnız coğrafi məkan deyil, xalqımızın ruhunun, kimliyinin, tarixinin ən qiymətli parçasıdır. Əsrlər boyu burada yaşayan ata-babalarımızın qurub-yaratdığı zəngin mədəniyyət və tarixi irs hər bir azərbaycanlının qəlbində fəxr hissi yaradır. Lakin bu torpaqların taleyi həmişə rəvan olmayıb. Hayların Cənubi Qafqaza yerləşdirilməsindən sonra başlayan kütləvi deportasiyalar və soyqırımları Qərbi Azərbaycanın taleyində acı bir səhifə açdı.

(davamı 4-cü səhifədə)

"Gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar"

(əvvəli 1-ci səhifədə)

Xalqımız zorla öz dədəbaba yurdundan qovuldu, tarixi abidələrimiz dağıdıldı, irsimiz talandı. Ancaq buna baxmayaraq, yurdumuza olan bağlılığımız heç vaxt qırılmadı. Zorla məskunlaşmadan məhrum edildiyimiz dövrlərdə belə, doğma torpaqların adı hər bir azərbaycanlının dilində, ruhunda yaşadı. Ailələrimizin söhbətlərində, nağıllarımızda, ağılarımızda Qərbi Azərbaycanın adı bir azadlıq, ədalət və qayıdış ümidinin rəmzi oldu. Bu gün xalqımızın yaddaşı nəsillər boyu ötürülən o müqəddəs irs ilə zəngindir. Hər bir daşına, çınqılına qədər əziz olan bu torpaqların bir gün yenidən öz sahibinə qayıdacağına olan inam xalqımızın ruhunda yaşayır. Qərbi Azərbaycan yalnız bir coğrafiya deyil, ədalətin, tarixi doğruluğun bərqərar olduğu, xalqımızın öz mənəvi irsinə qovuşacağı bir məkandır. Bu əzəli yurdun hər bir guşəsi bizə çağırış edir: tarixi yaddaşı yaşatmaq, haqq uğrunda mübarizəni davam etdirmək və gələcək nəsillərə bu müqəddəs amalı ötürmək borcumuzdur.

2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan ziyalılarının nümayəndələri ilə yeni icma binasında görüş keçirərək strateji əhəmiyyət daşıyan məsələlərə toxunması ölkəmizin bu istiqamətdə prinsipial mövqeyini aydın şəkildə nümayiş etdirdi. Prezident vurğuladı ki, azərbaycanlıların öz tarixi torpaqlarına sülh yolu ilə qayıdışı beynəlxalq hüquqa əsaslanan bir məsələdir. Qərbi Azərbaycan İcmasının fəaliyyəti xüsusi vurğulanaraq, bu qurumun 1989-cu ildən bəri Qərbi Azərbaycan qaçqınlarının problemlərini işıqlandırdığı və 1988-1991-ci illərdə deportasiya olunmuş azərbaycanlılarla bağlı fakt və sənədlərin toplanması ilə məşğul olduğu qeyd edildi. Prezident İlham Əliyev icmanın üzvlərinə və ziyalılara bir sıra vacib tapşırıqlar verdi. Bu tapşırıqlar arasında icmanın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq ictimaiyyətlə daha səmərəli əlaqələrin qurulması, Qərbi Azərbaycanla bağlı həqiqətlərin dünyaya çatdırılması, hüquqi əsasların möhkəmləndirilməsi və soydaşlarımızın dədə-baba yurdlarına qayıdışı prosesində həmrəyliyin gücləndirilməsi kimi vəzifələr xüsusi yer tutur. Bu tarixi görüş həm dövlətin məsələ ilə bağlı ciddi iradəsini, həm də Qərbi Azərbaycan icmasının qarşıdakı fəaliyyətində bir dönüş nöqtəsi olduğunu əyani şəkildə nümayiş etdirdi.

Prezident İlham Əliyevin bu məsələyə ayırdığı diqqət və qayğı xüsusi qeyd olunmalıdır. Yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bir daha bu mövzuya toxunan ölkə başçımız bildirib ki, bundan sonra bizim həm qeyri-hökumət təşkilatlarının, həm dövlətin fəaliyyəti ondan ibarət olacaq ki, Qərbi azərbaycanlılar öz dədəbaba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda bilsinlər və orada yaşasınlar: "Bu, bütün beynəlxalq norma və prinsiplərə uyğun olan bir tələbdir... 1920-ci ilin noyabrında Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana birləşdirildi. Ondan iki il əvvəl, əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti İrəvan şəhərini Ermənistana bağışladı və ondan sonrakı dövrdə xalqımız nə qədər əzab-əziyyət çəkib. Ona görə vaxt gəlib ki, Ermənistan şərait yaratsın, Qərbi azərbaycanlılar öz dədə-baba yurdlarına qayıda bilsinlər".

Ölkə başçımız həmçinin qeyd etdi ki, biz bu məsələdə Ermənistan rəhbərliyindən çox dəqiq və beynəlxalq hüquqa uyğun mövqe gözləyirik: "Onlar hələ ki, susmağa üstünlük verirlər. Halbuki biz bu məsələni dəfələrlə dilə gətirmişik və onlardan konkret cavab gözləyirik. Nə vaxt, hansı şərtlərlə azərbaycanlılar o bölgələrə qayıda bilərlər? Xüsusilə nəzərə alsaq ki, azərbaycanlıların yaşadıqları kəndlərin böyük əksəriyyəti indi tamamilə boş qalıb, orada heç kim yaşamır, ora qayıtmaq o qədər də böyük problem olmaz, yəni ki, kimisə oradan köçürtmək lazım olmayacaq. Sadəcə olaraq, təhlükəsizlik zəmanəti verilməlidir. Onların orada yaşama hüququ tanınmalıdır və əlbəttə ki, onların fəaliyyəti üçün şərait yaradılmalıdır. Yəni bizim tələbimiz bundan ibarətdir və mən ümid edirəm, gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar".

Prezident İlham Əliyevin bu məsələdə nümayiş etdirdiyi əzm Azərbaycan xalqına həm tarixi unutmamaq, həm də gələcəkdə ədalətin bərqərar olunacağına ümidlə baxmağı öyrədir. Bu qətiyyət hər bir azərbaycanlıya mesajdır: haqq-ədalət yolunda yorulmadan mübarizə aparmaq və tarixi torpaqlarımıza qayıdış naminə həmrəylik nümayiş etdirmək bizim milli vəzifəmizdir.

Ölkə başçımızın fikirləri Qərbi Azərbaycan İcması tərəfindən də böyük dəstək və rəğbətlə qarşılandı. Prezidentin bəyan etdiyi qayıdış ideyasının beynəlxalq hüquqa uyğun olduğunu və tarixi ədalətin bərpasına xidmət etdiyini vurğulayan Qərbi Azərbaycan İcması bu fikirlərə dair bəyanat verdi. "Ermənistanın siyasi dairələrində hakim olan irqi ayrı-seçkilik və radikal millətçilik ideologiyası insan hüquqları və sülh üçün ən böyük təhdiddir. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1993-cü ildə etdiyi, "Ermənistan və Qarabağın yad millətlərdən tamamilə təmizlənməsi"ni tarixi nailiyyət kimi təqdim edən çıxışının bu günlərdə yayılmış videoyazısı, ikinci prezident Robert Koçaryanın beynəlxalq təşkilatın tribunasından "Azərbaycanlılar və ermənilər etnik cəhətdən uyğunsuzdurlar" kimi irqçi açıqlaması, üçüncü prezident Serj Sarkisyanın və onun partiyasının faşist Qaregin Njdenin "Tsexakronizm" irqçi ideologiyasından ruhlanması bu dövlətin mahiyyətini əks etdirir... Biz Ermənistan hökumətindən Qərbi azərbaycanlıların deportasiyasına görə üzr istəməyi, Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağı, qayıdışa şərait yaratmağı, Azərbaycan xalqına məxsus olan mədəni irsin dağıdılması və təhrif edilməsi siyasətinə son qoymağı, silahlanmanı dayandırmağı, üzərinə götürdüyü öhdəliklərinə uyğun şəkildə kommunikasiya xətlərini açmağı tələb edirik".

Bu bəyanat yalnız Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi deyil, həm də Ermənistanın irqçi və radikal millətçilik siyasətinə qarşı beynəlxalq ictimaiyyəti hərəkətə keçməyə çağırışdır.

Röya RÜSTƏMLİ,
"Respublika".

Respublika .- 2024.- 9 yanvar (№ 03).- S.1;4.